Tarix və onun problemləri, №2 2010

**FƏDAI ŞUCA HƏSƏN**
*BDU-nin dissertantı*

# ABŞ-LA İRAN ARASINDA GƏRGINLIYIN ƏSAS KÖKLƏRI HAQQINDA

İran İslam inqilabının qələbəsindən sonra ABŞ, 1979-cu il fevralın 16-da Ayətullah Xumeyninin təyin etdiyi müvəqqəti hökuməti rəsmi tanıdı və şahın Amerikada qəbul edilməsini rədd etdi. Fevralın 21-də ABŞ-ın İrandakı səfiri Sallivan ilk dəfə olaraq İranın o dövrdə baş nazir Mehdi Bazərqanla görüşərək bir daha bəyan etdi ki, ABŞ-İran inqilabını tanımışdır və İranın daxili işlərinə müdaxilə etməyəcək. Sallivan həmçinin bildirdi ki, Amerika İranla hərbi əlaqələr sahəsində əməkdaşlığa müsbət yanaşır və İrana lazım olan silahları verməyə hazırdır. Əlaqələrdə başlanan bu isniş-mə 1979-cu ilin may ayının 17-də ABŞ senatının İranda insan hüquqlarının pozul-ması haqda qəbul etdiyi qətnamə ilə münasibətlərdə gərginliklə əvəz olundu; bu qətnamədə İranda insan hüquqlarının pozulması pislənirdi. Tehran ABŞ-ın yeni səfirini qəbul etməkdən imtina etdi. ABŞ senatının bu qətnaməsi iki dövlət arasında gərginliyə səbəb oldu.

1979-cu ilin oktyabrın 25-də İranın keçmiş şahın xəstəliyi ilə əlaqədar Amerikaya müalicə üçün səfər etməsi və bu ölkədə onun qəbul olunması İran dövlətinin kəskin etirazına səbəb oldu. Elə həmin ilin noyabrın 1-də Əlcəzair konfransında baş nazir Mehdi Bazərqanın başçılıq etdiyi nümayəndə heyətinin ABŞ prezidentinin müşaviri Bzejinski ilə görüşündə şahın, Fərəh Pəhləvinin və İranın ABŞ banklarında yatırılan pullarının İrana qaytarılması tələbi irəli sürüldü. Vaşinqton bu tələbi qəbul etməkdən imtina etdiyindən noyabrın 4-də ABŞ-ın Tehrandakı səfirliyi özlərini imam Xomeyninin davamçıları adlandıran tələbələr tərəfindən işğal olundu.

Noyabrın 5-də Ayətullah Xomeyni tərəfindən ABŞ səfirliyinin işğalı razılıqla qarşılandı.

Qeyd edək ki, səfirlik binasının işğal olunması və 53 nəfər amerikalı diplomatının girov adı altında əslində həbs olunması diplomatiya tarixində çox az hallarda baş verən hadisələrdən idi. Tələbələrin bu hərəkəti diplomatiya haqqında 1961-ci il Vyana Konvensiyasının tələblərilə bir araya sığmırdı. Lakin belə bir gözlənilməz hadisənin əsil səbəbləri ABŞ-ın İranın daxili işlərinə kobudcasına qarışmağında və müdaxilə etməsində axtarmaq lazımdır. Belə bir müdaxilənin əsası 1953-cü ilin avqustun 19-da ABŞ-ın xüsusi orqanları tərəfindən Müsəddiq hökumətinin devrilmə-sində, 1953-cü ildə ölkəni tərk etmiş şahın hakimiyyətə qaytarılmasında, 1959-cu ilin martın 5-də ABŞ-la şah hökuməti arasında bədnam "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilənin şah rejiminə qəbul etdirilməsində və bir də 1964-cü ildə ABŞ-ın İranda işləyən çoxsaylı vətəndaşlarına toxunulmaz hüququnun (kapitulyasiya rejimi) verilməsində axtarmaq lazımdır. Bu hadisələrin baş verməsi BMT Nizamnaməsinin məlum müddəalarının və Beynəlxalq hüququn 10 universal prinsiplərinin kobudcasına pozulması deməkdi. Buna görəd ABŞ-ın Tehrandakı səfirliyi "casus yuvası" adlandırıldı və bu "yuvada" fəaliyyət göstərən diplomatlara isə "casuslar" damğası vuruldu.

Tehrandakı Amerika diplomatlarını girovdan azad etmək məqsədilə ilk təşəbbüs o dövrdə ABŞ prokuroru Klarkın İrana göndərilməsi oldu. Lakin Ayətullah Xumeyni-nin hər növ müzakirəyə qarşı olduğu səbəbindən bu nümayəndə Türkiyədən geri dönməli oldu. ABŞ-ın prezidenti Cimi Karter dinc təşəbbüslərin səmərəsiz olmasına görə daha kəskin tədbirlərə əl atdı ki, bu da hərbi qarşıdurma üçün zəmin yaratdı. Bu tədbirlər ABŞ-da qeyri-qanuni yaşayan iranlıların deportasiyasından, İrana lazım olan hərbi təchizat və ehtiyat his-

sələrin satılmasına noyabrın 9-da qadağa qoyulmasından, İrandan neft idxalını dayandırmaq barədə noyabrın 12-də verilən əmrdən ibarət idi. Əlavə edək ki, bu tarixə qədər ABŞ İrandan gündəlik 387 min barel neft idxal edirdi. Nəhayət ABŞ prezidenti Amerika banklarında və bu bankların xaricdəki şöbələrində İran dövlətinə məxsus 6 milyard dollara yaxın sərmayə və əmanətlərinin dondurul-ması haqqında noyabrın 14-də sərəncam imzaladı.

Diplomatların həbs olunması, səfirlik binasının zəbti, buna cavab olaraq ABŞ hökuməti tərəfindən İrana qarşı görülən tədbirlər, iki dövlət arasında münasibətlərin kəskin fazaya daxil olmasından xəbər verirdi.

Diplomatları girov götürmüş tələbələr onların azad edilməsi üçün dörd şərt irəli sürdülər:

1-ABŞ rəsmən öhdəsinə götürməli idi ki, hər zaman İran İslam respublikasının daxili işlərinə müdaxilə etməyəcəkdir.

2-İran dövlətinə məxsus sərmayə və əmanətlərin dondurulması haqda ABŞ prezidentinin 14 noyabr tarixli əmri ləğv olunmalıdır.

3-İran İslam respublikasına qarşı bütün maliyyə-iqtisadi sanksiyalar ləğv olunmalıdır.

4-Şahın sərvətləri İrana qaytarılmalı və İran dövləti tərəfindən bu sərvətin müsadirə etmək haqqı tanınmalıdır

İki dövlət orqanında başlanmış böhranın ilkin mərhələsində ABŞ-ın strategiyası iki əsas prinsip üzərində qurulmuşdu: milli şərəf və qürurun mühafizəsi və ikincisi isə regionda ABŞ-ın həyati mənafeyinin qorunması. Bu məqsədə nail olmaq üçün Karter xüsusi bəyanatla çıxış edərək bildirdi ki: " Şahı İrana qaytarmağa razılaşmayacaq və İranda girov götürülmüş diplomatların mühakimə olmasına heç cür icazə verməyəcəkdir".

Bu strategiya istiqamətində ABŞ nəinki ikitərəfli formada və həm də beynəlxalq arenada İrana daha çox təzyiqlər göstərməyi taktiki gediş kimi seçdi. Beləliklə dekabrın 4-də BMT-nin Təhlükəsizlik Şurası özünün 457-ci qətnaməsini qəbul etdi və bu sənəddə İrandan girovların azad olunması tələb olundu. İran dövlətinin BMT-nin Təhlükəsizlik Şurasının qətnaməsinə məhəl qoymamasına görə, bunun ardınca Sovet qoşunlarının Əfqanıstana hücum etməsindən bir həftə sonra dekabrın 31-də 461-nömrəli qətnamədə İrana qarşı iqtisadi sanksiyalar qəbul edildi. ABŞ-ın o dövrdəki dövlət katibi Sayrus Vene yazıb: "Sovet dövlətinin Əfqanıstana hücumu bizim ümumi siyasətimizi dəyişmədi, amma girovlar məsələsilə bağlı bizi daha ehtiyatlı davranmağa vadar etdi, çünki belə bir təhlükə mövcud idi ki, biz tərəfdən İrana qarşı daha çox təzyiq göstərildiyi təqdirdə İranı ruslarla yaxınlaşmağa sövq edə bilər. Əlbəttə Ayətullah Xomeyninin antikommunist əqidəsini və həmçinin iranlıların uzaq keçmişlərdə ruslardan ehtiyatlanmalarını nəzərə alaraq bu təhlükənin baş vermə imkanı az idi. Ancaq ABŞ-n təzyiq və hədələri müqabilində dayanmaq üçün Sovet dövlətinə meyl etmə imkanı mövzu idi (1. s.79).

Girovların probleminin həlli yolunda beynəlxalq səviyyədə ilk təşəbbüs BMT-nin Baş Katibi Kurt Valdhaymın 1980-cı il yanvarın 1-də Tehrana səfəri ilə başlandı. Ayətullah Xomeyni onunla görüşməyə razılıq vermədi və Baş Katibin səfəri nəticəsiz sona çatdı. Valdhaymın qərəzli məlumatından sonra yanvar ayının 12-də BMT-nin Təhlükəsizlik Şurası İrana qarşı iqtisadi sanksiyalar barədə qətnamə qəbul etdi. Sovet dövlətinin nümayəndəsi bu qətnaməyə veto qoyduğu üçün qəbul olunmadı. Beləliklə iki ölkə arasında münasibətlər artıq siyasi böhran həddinə çatdı. Hadisələrin gərgin həddə çatmasına təkan verən amillərdən biri də ABŞ prezidenti Karterin sərt mövqeyi idi. Belə ki, ABŞ-prezidenti BMT-nin vasitəsilə öz məqsədinə çata bilmədiyi üçün martın 22-də İrana qarşı bir sıra ciddi tədbirlərin başlanması haqqında qərar qəbul etdi. Prezidentin imzaladığı sərəncamda İrana qarşı tədbirlər aşağıdakılardan ibarət idi:

1-İranlı diplomatların son dəstəsinin ölkədən çıxarılması və Tehranla siyasi əlaqələrin kəsilməsi;

2-İrana ticarət sanksiyasının tətbiqi;

3-Maliyyə məsələlərilə bağlı mövcud narazılıqların qabardılması.

Girovların məsələsinin həll olunmaması və konfliktin getdikcə dərinləşməsinin ardınca, martın 26-da Cimi Karter İngiltərə, Kanada, Yaponiya, Almaniya və Fransadan İrana qarşı sanksiyalara qoşulmalarını israr etdi. Lakin bu ölkələrdən yalnız Kanada Karterin xahişinə müsbət cavab verdi (1. s.87).

Karter İrana qarşı avropalı müttəfiqlərini səfərbər edə bilmədiyi üçün 1980-ci il aprel ayının 7-də İranla bütün əlaqələrinin kəsilməsinə fərman verdi.

Beləliklə, problemin dinc vasitələrlə həll olunması istiqamətində Vaşinqtonun bütün səyləri nəticəsiz qaldığından, həbsdə olan diplomatların güc tətbiq etmək yolu ilə azad olunmaları barədə qərar qəbul olundu. Bu hərbi əməliyyatda 8 helikopter, C-130 tipli hərbi təyyarələr və 90 nəfərdən ibarət silahlı dəstə iştirak etdi. hərbi qüvvə iştirak etdilər. Amma gözlənilmədən baş verən fırtına nəticəsində 8 nəfər amerikalı desant həlak oldu, bir helikopter, bir C-130 təyyarəsi süqut etdi və bu əməliyyat məğlubiy-yətlə sona çatdı. Amerika dövlətinin yenidən hərbi əməliyyatlara əl ata biləcəyi ehtimalını nəzərə alaraq İran hökuməti Tehranda bir yerdə saxlanılan amerikalı diplomatları bir-birindən ayıraraq ölkənin müxtəlif şəhərlərində pərakəndə halda saxlamaq haqqında qərar qəbul etdi və bu tədbir tezliklə icra olundu.

Girovlarla bağlı problemin təhlükəli həddə çatmasını nəzərə alaraq məsələyə İran parlamenti qarışdı. Belə ki, 1980-ci il noyabrın 2-də İslam Şura məclisi ABŞ qarşısında 4 bənddən ibarət aşağıdakı şərtləri irəli sürdü:

1. İran İslam respublikasının daxili işlərinə birbaşa və ya dolayısı yolla siyasi-hərbi müdaxilə etməmək barədə öhdəlik;

2. İrana məxsus bütün abuarların azad edilməsi və Amerika prezidentinin 1979-cu il noyabrın 14-dəki fərmanının ləğvi;

3-İrana qarşı maliyyə -iqtisadi sanksiyaların ləğvi;

4-Şah və onun yaxın qohumlarının İran xalqına məxsus mallarının qaytarılması.

Münasibətlərin təhlükəli məcraya daxil olmasını nəzərə alan Əlcəzairin prezidenti vasitəçilik missiyası ilə çıxış etdi. Bu missiya qismən uğurla nəticələndi. Belə ki, İranla ABŞ 1980-ci il yanvarın 19-da Əlcəzair bəyannaməsini imzaladılar. Bu sazişə əsasən 52 nəfər amerikalı diplomat 444 gün həbsxanalarda saxlandıqdan sonra fevralın 4-də azad oldular.

ABŞ səfirliyinin işğalı və Tehranda Amerika vətəndaşlarının girov götürülməsi məsələsi bütövlükdə İran-Amerika əlaqələrilə düyünlənmiş bir mövzudu və Tehranın bu addımı ABŞ-ın ictimaiyyəti tərəfindən kəskin həssaslıq və etirazla qarşılanmışdı. İranlıların bu həssaslıq və narazılığı isə 19 avqust 1953-cü ildə İranda ABŞ tərəfindən həyata keçirilən dövlət çevrilişi ilə bağlı idi. hərbi çevrilişi ilə başlanmışdırsa, amerikalılar üçün bu hadisə 1979-cu il noyabrın 4-də Amerikanın Tehrandakı səfirliyinin işğalı ilə başlandı (2. s.107).

Amerikalı yazıçı Bari Ruben "İranda supergüclərin müharibəsi" kitabında İranla Amerikanın gələcək əlaqələrini belə proqnozlaşdırmışdır: "Amerika vətəndaşlarının İranda girov götürülməsi və onun nəticələri İran-Amerika əlaqələrində elə bir dərin yaranın əmələ gəlməsinə səbəb olmuşdur ki, bu yaranın sağalması girovların azad edilməsindən sonra da çətin görünür". Bundan başqa tarixi faktlar göstərir ki, üçüncü dünya ölkələrində baş verən inqilablar ABŞ-la münasibətdə uzun müddətli ixtilaf və əlaqələrin kəsilməsilə müşayiət olunmuşdur, amma bu mərhələ ötüşəndən sonra yaxın və səmimi əlaqələrin yaranması üçün zəmin yaranmışdır. Çində, İraqda və Misirdə buna bənzər hadisələr baş vermişdir (3. s. 249).

Girov götürmə hadisəsindən sonra Cimmi Karter və ondan sonrakı prezident Ronald Reyqan İran dövləti tərəfindən olunan təhqiri İran-İraq müharibəsində və sonra da müharibəyə müdaxilə etməklə İranı bir növ "cəzalandırmağa" çalışıblar. Buna misal olaraq Vaşinqton tərəfindən İraqın İrana hücum etməyə təşviq və təhrik olunmasını göstərmək olar.

Müharibə zamanı Amerika hərbi qüvvələri müxtəlif səbəblərdən bir neçə dəfə İran hərbi qüvvələrilə döyüşə girmiş və İran ordu hissələrinə çoxlu xəsarətlər yetirmişlər. Belə ki, İranın "Əcr" adlı ticari gəmisi, Rüstəm adası, Rəşadət neft limanı, Sasan adlı neft qurğusu, həmçinin Coşən, Səhənd və Savalan adlı katerlər Amerikaya məxsus hərbi hissələrinin hücumlarına məruz qalmışlar (4. s. 271).

ABŞ-ın İran-İraq müharibəsinə müdaxilə etməklə əsas məqsədi İran dövlətinin mövqeyini dəyişdirmək və Amerikanın dünyadakı və regiondakı siyasətilə İran dövlətinin razılaşmasına nail olmaq olub.

Sonralar amerikalılar öz siyasətlərinin davamında "iki tərəfin nəzarəti" proyekti əsasında 1993-cü il may ayında İran və İraq ölkələrinə təzyiq və sanksiyalar planını ortaya qoydu və 1996-cı il avqustun 5-də konqresdə "Alfuş Damato" planı qəbul olundu. Bu plana əsasən İranın neft-qaz sənayesində hər hansı bir şirkət yaxud dövlət 40 milyondan çox sərmayə qoyarsa ABŞ dövləti tərəfindən iqtisadi sanksiya ilə üzləşəcəkdir. Həmçinin, İranın Buşehr nüvə stansiyasının tikilməsi üçün təchizatın göndərilməsini dayandırması üçün Çexiya respublikasına təzyiqləri artırıldı. Corc Buşun prezidentliyinin başlanğıc dövrlərində o, İranı ABŞ-ın üç düşmənindən biri hesab etdi. Bütün bunlar ABŞ-ın İrana qarşı siyasətlərində sabit xətt kimi müdaxilə etmək siyasətinin davamı deməkdir (5. s. 2).

Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Amerika-İran münasibətlərində təzahür edən ixtilaflar bu iki ölkənin keçmişdəki əlaqələrilə bağlıdır. Amerikanın 1953-cü ilin avqust ayının 19-da İranda hərbi çevrilişdə fəal iştirak etməsi və 1979-cu il noyabrın 4-də ABŞ səfirliyinin tələblər tərəfindən işğal olunması iki dövlət arasında vaxtaşırı təzahür edən gərginliyin ən gərgin mərhələləri hesab olunur.

Qarşılıqlı ehtiram, bərabər səviyyəli əlaqənin yaradılması və üstəlik beynəlxalq qanunlara riayət etmək iki dövlət arasında münaqişəli vəziyyətin və gərginliyin aradan qaldırılması üçün əsasdır. Bunu beynəlxalq hüququn əsas prinsip və normaları tələb edir.

### ƏDƏBIYYAT:

1.Vəns Sayrus Bene. İranda tövtiə. Tərcümə edən Məşriqi Mahmud. Tehran, Həftə nəşriyyatı, 1983.
2.Nəvazəni Bəhram. İrana qarşı ABŞ-ın davranış normaları. Tehran, İslam inqilabı sənədləri mərkəzi, 2004.
3.Mediniya Cəfər. İranda Amerika səfirliyinin işğal etmə müəmması. Tehran, Ümid fərda nəşriyyatı, 2004.
4.Velayəti Əliəkbər. İran İslam respublikasına qarşı İraqın təhmil etdiyi müharibəsinin siyasət tarixi. Fərhənge İslami nəşriyyatı, Tehran, 1988.
5.Yəqubi Hüseyn. Böyük yaxın şərq planında İran üçün yaranan münaqişələr. s. 2.

**ФАДАИ ШУДЖА ГАСАН**

### РЕЗЮМЕ

В статье исследуются проблемы взаимоотношений Ирана с Соединенными Штатами Америки. Автор приходит к заключению, что основные осложнения во взаимоотношениях двух стран происходили 19 августа 1953 году, в результате государственного переворота в Иране под руководством и участием спецслужб США и в 1979 году в результате захвата посольства США в Тегеране и взятием дипломатического персонала в заложники.

**FADA SHUJA HASAN**

**SUMMARY**

This article investigates the problem of relations between Iran and the United States of America. The author concludes that the major complications in the relations between the two countries took place on Aug. 19, 1953, in a coup in Iran under the leadership and participation of the U.S. special services, and in 1979 as a result of the seizure of U.S. embassy in Tehran and the taking of diplomatic personnel hostage.

***Rəyçilər: t.e.d.H.Əlibəyli, t.e.d.M.C.Qasımlı.***